**Hazırda 120 ölkənin üzv olduğu və özündə heç bir hərbi və siyasi bloklarda iştirak etməyən dövlətləri birləşdirən Qoşulmama Hərəkatı BMT-dən sonra ən böyük siyasi təşkilatdır. Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Zirvə Görüşünün Bakıda keçirilməsi, Azərbaycanın müstəqillik tarixində ən vacib hadisələrdəndir. Dünya əhalisinin 55 faizdən çoxu bu hərəkata üzv olan ölkələrin vətəndaşlarıdır. Miqyas son dərəcə cəlbedicidir. Bu səbəbdən, Azərbaycanın bu cür nüfuzlu bir təsisatın sədri seçilməsi ikiqat qürurverici və məsuliyyətlidir... Bu fikirləri Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini, YAP-ın beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva dedi.**



# Diplomatiyamızın növbəti qələbəsi

Deputat Azərbaycanın 3 il müddətinə bu nüfuzlu təşkilata sədr seçilməsini diplomatiyamızın növbəti qələbəsi hesab etdi. ”Respublikamızın Qoşulmama Hərəkatına 3 il müddətinə sədrliyi bizə nə verəcək” – sualının cavabında S.Fətəliyeva bildirdi ki, bu mötəbər təşkilat bizim üçün mövcud beynəlxalq əlaqələrimizin möhkəmləndirilməsi, habelə yeni ikitərəfli münasibətlərin qurulması, təbii ki, ilk növbədə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin reallıqlarının dünya ictimaiyyətinə çatdırılması baxımından bir növ siyasi arenadır: “Qoşulmama Hərəkatının əsaslandığı, dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörməti, bir-birinin daxili işlərinə qarışmamağı ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasət prinsipləri ilə üst-üstə düşür. Təsadüfi deyil ki, Prezident İlham Əliyev böhran, münaqişə və beynəlxalq siyasətin digər problemli mövzularının böyük əksəriyyətinin həllinin qarantı olan beynəlxalq hüququn norma və müddəalarına riayət edilməsinin vacibliyini xüsusi vurğulayıb. Dövlət başçısı açıq şəkildə bildirib ki, münaqişələrin böyük əksəriyyətinin səbəbi dünya siyasətindəki ikili standartlardır”.

Prezident İlham Əliyevin zirvə görüşündəki nitqinə münasibət bildirən S.Fətəliyeva dedi ki, dövlətimizin başçısı Azərbaycanın xarici siyasətinin prioritetlərini təfərrüatlı şəkildə izah etdi, respublikamızın sədrliyi dövründə Qoşulmama Hərəkatının fəaliyyət perspektivlərinə, ölkəmizdə baş verən hadisələrə ətraflı yer ayırdı, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafındakı vəziyyətlə bağlı təfsilatı ilə danışdı: “Prezident İlham Əliyevin BMT-də beynəlxalq hüququn norma və prinsiplərinin təmin edilməsi və onlara riayət olunması ilə bağlı səylərin göstərilməsi, sərhədlərin güc yolu ilə dəyişdirilməsinin qarşısının alınması, ölkələrin ərazi bütövlüyünün pozulmasına yönəlik islahatların keçirilməsinə dair çağırışı da beynəlxalq siyasətdə ikili standartlara qarşı mübarizənin zəruriliyindən qaynaqlanıb. Bakıda keçirilən XVIII Zirvə Görüşü Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini daha da gücləndirdi. Qəbul edilmiş sənədlərdə dövlət və hökumət başçıları münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirir və onun Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasının vacibliyini vurğulayırlar”.

Yekun sənədə ilk dəfə olaraq çox mühüm bənd daxil edildiyini vurğulayan S.Fətəliyeva dedi: “Bu bənddə dövlət və hökumət başçıları güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyini bildirir və təsdiq edirlər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq, bu ərazilərdə iqtisadi fəaliyyətlər də daxil olmaqla, bu cür vəziyyətin saxlanması üçün hər hansı kömək göstərməyəcək. Burada bilavasitə işğalçı ifadəsindən istifadə olunur. Bu, Ermənistanın növbəti dəfə 120 dövlət tərəfindən işğalçı kimi tanınması deməkdir”.

***Söhbəti qələmə aldı:***
***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2019.- 30 oktyabr. S. 3.